

# Mənəviyyat körpüsü

**Söyləməyə lüzum yoxdur ki, mətbuat kimi televiziya və radio da ən qüdrətli və qiymətli milli sənəddir. Haqlı olaraq onu milli mənəviyyatın güzgüsü adlandırırlar.**

**Bu mənada, əxlaqımızın bütün çalarlarını televiziyada daha aydın görürük. XX əsrin ortalarından etibarən inam və inadla evlərə, ailələrə, beləliklə də milli-mənəvi yaddaşımıza daxil olmuş bu möcüzəli qutu artıq milli tribunaya, dövlətin xitabət kürsüsünə çevrilmişdir.**

Xüsusi vurğulamalıyıq ki, cəmiyyətin və şəxsiyyətin həyat və fəaliyyətinin bütün sahələri və növləri arasında televiziyanın gələcəyi ən çox mədəniyyətlə bağlıdır. Yaxın gələcəkdə televiziyanın və başqa kütləvi kommunikasiya vasitələrinin inkişafını məhz mədəniyyətin tərəqqisi müəyyən edəcək, onlar isə öz növbəsində milli və dünya mədəniyyəti sistemi ilə birləşəcəklər.

Məlumdur ki, cəmiyyətin və mədəniyyətin tərəqqisi yalnız iqtisadiyyatın güclənməsi ilə deyil, həm də ünsiyyət vasitələrinin inkişafı ilə əlaqədardır.

Televiziyanın XX əsrin ortalarından başlanan zəfər yürüşünün yeni növ mədəniyyətin formalaşmasına gətirib çıxarması da bunu bir daha sübut edir.

Hazırda televiziya mahiyyət etibarilə təkcə kütləvi informasiya vasitəsi deyil. İndi bu barədə danışarkən haqlı olaraq qeyd edirlər ki, televiziya artıq ümumi mədəniyyət sisteminin ayrılmaz hissəsidir. O, keçmişin zəngin mədəni sərvətlərinin mənimsənilməsi, toplanması, çoxaldılması, geniş kütlələr arasında yayılması işində müstəsna rola malikdir. AzTV, ANS, "Lider", Space, ATV, İctimai, "Xəzər" və s. kanalları izləyərkən bir daha əmin olursan ki, televiziya mədəniyyət və incəsənətin ənənəvi sahələrində yaradılan aktual mənəvi sərvətləri translyasiya edir, geniş tamaşaçı kütləsi arasında yayır. Bununla yanaşı, televiziyanın özü də forma və məzmunca elə orijinal sənət inciləri yaradır ki, onlarsız müasir mədəniyyəti təsəvvür etmək mümkün deyil. Yalnız bir fakt: 80-ci illərin ortalarında Azərbaycan televiziyasında rejissor Ramiz Mirzəyev (Həsənoğlu) Hüseyn Cavidin "Topal Teymur" pyesi əsasında televiziya tamaşası hazırladı və bu tamaşa respublikanın mədəni həyatında böyük hadisəyə çevrildi.

Fikrimcə, mədəniyyət sistemində televiziyanın yeri və əhəmiyyəti üç başlıca amillə müəyyən edilir:

- birinci, bəşəriyyətin dünya xalqlarının vahid birliyi kimi təşəkkül tapmasının obyektiv prosesi. Dünyanın dahi mədəniyyət xadimlərinin (Kant, Höte, Nizami və başqalarının) çoxdankı arzuları nəhayət həqiqətə çevrilir. Bu proses öz ifadəsini get-gedə dünyada daha çox tərəfdar tapan "yeni təfəkkür" də təzahür etdirir;

- ikinci, "informasiya mədəniyyətinin" (O. Tofflerin təbirincə desək, "üçüncü dalğanın") sürətlə formalaşması. Bu prosesin gedişində informasiya sərvətləri tərəqqinin hərəkətverici qüvvəsinə çevrilir və televiziya, peyk antenası, video, İnternet sayəsində Yer üzünün hər bir sakini bu sərvətlərdən bəhrələnə bilir;

- üçüncü, mədəniyyətin insandan xaricdə mövcud olan sərvətlər toplusu deyil, şəxsiyyətin öz-özünü dərk etməsi, yeni təfəkkür və milli şüurun"insanyaratma" prosesi kimi, bəşər nəslinin humanistləşməsi prosesi yönümündə başa düşülməsi (3). XXI ərsdə həqiqi, real dünya mədəniyyətinin təşəkkülü "mədəniyyətin" və deməli, televiziyanın "insanyaratma" vəzifəsinin mühüm nəticəsi olmalıdır. İnsanı ucaltmaq, yüksəltmək vasitəsi kimi dünya mədəniyyəti həmişə bütöv - bölünməz olmuşdur. Onun bu bütövlüyünün cizgiləri indi daha aydın nəzərə çarpır. Çağdaş teleproyektlərin ümumi dünya telekanallar sistemində yaratdığı "Telekörpü"lərdən göründüyü kimi televiziya artıq indi insanları bir- birindən ayıran sərhədləri, sədləri keçərək müxtəlif qitələrdə və ölkələrdə yaşayanları birbaşa görüşdürür, mədəni əlaqələrin genişlənməsi, mənəvi sərvətlər mübadiləsi üçün yeni imkanlar açır.

Ümumbəşər mədəniyyətinin yaradılması heç də milli mədəniyyətlərin eyniləşdirilməsi, bir-birinə ilhaq edil-

məsi prosesinə çevrilməməlidir. Başqa milli mədəniyyətlərlə tanışlıq hər bir millətı nəinki zənginləşdirir, həm də onun milli qürurunu artırır, milli şüurunun formalaşmasına kömək edir. Hər millətin mədəniyyəti nə qədər zəngin, sərvətləri dəyərli olsa dünya mədəniyyəti bir o qədər məzmunlu və dolğun olacaq.

İnsanların ünsiyyət imkanlarını - sərhədlərini misilsiz dərəcədə genişləndirməklə, müxtəlif xalqların həyat tərzi haqqında adamlarda tam təsəvvür - obraz yaratmaqla televiziya ümumbəşəri mədəni sərvətlərin sinfi sərvətlərdən üstünlüyü barədə humanist dünyagörüşünün əsas prinsipinin təsbit olunmasına xidmət edir.

Müxtəlif dövrlərin və xalqların mənəvi göstəricisi sayılan mədəniyyəti, xalq yaradıcılığı, dini etiqad, ədəbiyyat və incəsənət əsərləri kimi sahələri televiziyanın orbitinə nə qədər çox çıxarılsa, Yer üzünün adamları da bir o qədər yaxşı dərk edəcəklər ki, bütün bəşəriyyət üçün əbədi mənəvi sərvətlər var və dünya xalqlarının tarixi və aktual birliyində bu sərvətlərin əhəmiyyəti əvəzsizdir. Bu gün ən başlıca ümumbəşəri sərvət həyatın özüdür ki, onun da qorunub saxlanılması mədəniyyətin və siyasətin əsas vəzifəsidir. Televiziya məhz bu işdə mədəniyyətin aparıcı sahəsi kimi öz humanist rolunu oynamalıdır.

Müasir televiziyanın mənfi cəhətlərindən biri mənəvi həyatı standartlaşdırmaq, adamların davranışını və insan şəxsiyyətini eyniləşdirmək meylidir ("cəmiyyəti kütləviləşdirmək"). Artıq indi kabel televiziyasının, peyk antenaların və başqa elektron texnikası növlərinin inkişafı ilə əlaqədar cəmiyyətin "standartlaşdırılması", "mərkəzləşdirilməsi", "kütləviləşdirilməsi" meyllərinin qarşısının alınması prosesi başlanmışdır. Bu proses getdikcə daha da güclənir və yaşadığımız əsrdə ən yüksək həddə çatacaq.

Beləliklə də, cəmiyyətin və mədəniyyətin rəngarəngliyi səviyyəsinin aşağı düşməsi prosesinin qarşısı alınmalıdır. "Kütləviləşdirmədən" uzaqlaşmaq nəticəsində hər bir insan öz inkişafı üçün ona lazım olan informasiyanı seçmək, kənardan təlqin edilənlərdən boyun qaçırmaq imkanı qazanacaq. Televiziyaya isə bu proses onun öz əzəli mahiyyətini qaytaracaq. Mənəvi cəhətdən insanın formalaşmasında televiziya daha yaxından, yeni qüvvə ilə iştirak edəcək.

Bəzi tədqiqatçılar və sənətkarlar (Rasputin, Makanin və başqaları) televiziyanı xalq yaradıcılığının inkişafına mənfi təsir göstərdiyinə görə haqlı məzəmmət edirlər. Amma bununla belə televiziyanın elə imkanları da var ki, ona bu "günahını" tamamilə yuyub aparmağa kömək edə bilər. Məsələ təkcə dünya xalqlarının yaradıcılığına, xalq istedadlarına ekranda geniş yer verilməsində, folklor ansambllarının təbliğində deyil. Bu iş indi də görülür.

Amerika tədqiqatçısı Marşal Maklyuen qeyd edir ki, televiziya ekranının estetikası başqalarından fərqli olaraq bir çox cəhətləri ilə xalq sənəti estetikasına uyğun gəlir və "çağdaş folklorun" tələblərinə cavab verir. Müasir tədqiqatçılar ( N.Zorskaya, V.Boryev, A.Kovalenko və başqaları) televiziya təsvirinin ənənəvi mədəniyyətlə, dünyanı xalq folkloru vasitəsilə duymaq və görməklə (arxitiplərdən, təkrarlardan, müxalifətdən, tanınma keyfiyyətindən və s. istifadə mənasında) dərin əlaqəsini qeyd edirlər.

Televiziya texnikası və ideologiyasının getdikcə təkmilləşdirilməsi verilişlərin forma və məzmununda milli mənəvi dəyərlərdən geniş istifadə etməyə imkan verəcək. Ən başlıcası isə bu, milli mədəniyyətini urbanizasiya və kütləvi kommunikasiya vasitələri tərəfindən dağıdılmış keyfiyyətlərini - onun tamaşalılığını, bayram ruhunu, bənzərsiz ifa tərzini bərpa edəcək, xalq yaradıcılığından, mənəvi sərvətlərdən daha geniş və səmərəli bəhrələnməyə imkan verəcək. İlkin qaynaqlara üz tutmağımız, mədəniyyətin demokratikləşdirilməsi yeni kommunikasiya formalarının təsiri və cəmiyyət həyatının yenidən qurulması sahəsində gözlərimiz önündə baş verən inqilabın bəlkə də ən mühüm nəticəsidir. Bu problem milli TV-lərimizin qarşısında xüsusilə ciddi vəzifələr qoyur.

Dünyanın inkişaf etmiş ölkələrində - ekran və xüsusən televiziya mədəniyyəti şəraitində insanların iki - üç nəsli boya - başa çatmışdır. Bu mədəniyyət teatr, musiqi, boyakarlıq kimi bütün ənənəvi incəsənət növlərinə birbaşa təsir göstərmişdir.

**Kütlələrin estetik şüurunun, idrakının, bədii sərvətlərdən istifadə modelinin və onların yaradılması formasının yenidən qurulmasına kömək etmişdir. Yaxın onilliklərdə televiziyanın mədəni - bədii rolu misilsiz dərəcədə artacaq. Bu televiziyanın öz mədəniyyətinin də köklü şəkildə yüksəlməsini, bu sahədə aparılan nəzəri tədqiqatların daha da genişlənməsini, keyfiyyətcə yaxşılaşmasını və bu sahədə çalışan kadrların peşə ustalığının artırılmasını tələb edəcəkdir.**

**Tural ƏFƏNDİYEV,**
*fəlsəfə doktoru*

## Ədəbiyyat

1. R. Mehdiyev. Azərbaycanın efir məkanı: problemlər və vəzifələr. "Azərbaycan" qəzeti, 2 oktyabr 2009-cu il.
2. T.Əfəndiyev. İctimai fikir "Mədəni-maarif işi" jurnalı, 2011-ci il №5.
3. E.Quliyev. Televiziya: nəzəriyyə, inkişaf meylləri. Bakı - 2004.
4. S. Qasımbəyli. Bayağı verilişlər artır. "Şərq" qəzeti, 15 dekabr 2010-cu il.
5. B.Niftəliyev. Efir məkanında təzə ünvanlar. "Mədəni-maarif işi" jurnal, 2001-ci il, №3.